Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...
Səh. 2 MÜFTİ VƏZİFƏSİNDƏN İSTEFA VERİB
Səh. 3 HACI BƏKİROĞLU YAZIR...
Səh. 3 AZƏRBAYCANIN GÜRCÜSTANDAKI YENİ SƏFİRİ ETİMADNAMƏSİNİ TƏQDİM EDİB
Səh. 4 GÜRCÜSTANDA AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN SAYI AZALIB
Səh. 5 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 6 HƏMİD SADIX YAZIR...
Səh. 7 FAYDALI VƏ ZİYANLI SÜNİİ İNTELEKT

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR 2020-Cİ İL №013 (117)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TÜRKİYƏ PREZİDENTİ AZƏRBAYCAN VƏ GÜRCÜSTANA DƏSTƏYİNİ İFADƏ EDİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının video-formatda keçirilən sessiyasında çıxışı zamanı Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə dəstək ifadə edərək bölgədə davam edən münaqişələrdən danışıb.

R.T.Ərdoğan Ermənistanın Cənubi Qafqazda sülh və sabitliyə ən böyük əngəl olduğunu bildirib.

"Biz bölgədə münaqişələrin, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin mümkün qədər tez bir zamanda həllinin tərəfdarıyıq. Türkiyə Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü və suverenliyi məsələlərinin BMT və ATƏT-in qətnamələri çərçivəsində həllini dəstəkləyir", - Türkiyə prezidenti deyib.

## AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB



"Gürcüstan-Azərbaycan sərhədinin delimitasiyası prosesinin vaxtında başa çatdırılması qarşılıqlı strateji maraq kəsb edir". Bunu prezident Salome Zurabişvili Gürcüstanda rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşü zamanı deyib.

Dövlət başçısı əminlik ifadə edib ki, bu prosesə heç nə və heç kim mane ola bilməz.

Görüşdə C.Bayramov Azərbaycanın Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü qəti olaraq dəstəklədiyini bildirib. S.Zurabişvili də öz növbəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edib.

Prezidentin sözlərinə görə, Gürcüstan bölgədə sülh və sabitliyi təşfiq edən platforma olmağa hazırdır.

Tərəflər həmçinin iki ölkə arasında siyasi, iqtisadi-ticari, mədəni əlaqələrin dərinləşdirilməsi məsələlərini də müzakirə ediblər, Gürcüstan və Azərbaycanın dost ölkələr və strateji tərəfdaşlar olduğunu vurğulayıblar.

S.Zurabişvili Azərbaycan prezidenti İlham Əliyevi və Birinci vitse-prezident Mehriban Əliyevanı Gürcüstana səfərə dəvət edib.

Ceyhun Bayramov səfəri çərçivəsində həmçinin Gürcüstanın baş naziri Giorgi Qaxaria, Gürcüstanın xarici işlər naziri David Zalkaliani və digər rəsmi şəxslərlə də görüşüb.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI ARTIB



Sentyabrın 30-na olan məlumata görə, Gürcüstanda koronavirusdan ölənlərin sayı 39 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında bildirilir.

Məlumata əsasən, bugünə qədər ölkədə koronavirusa yoluxanların sayı 6192 nəfər, sağalanların sayı isə 3120 nəfər təşkil edir.

Hazırda ölkə üzrə karantin rejimində 5445 nəfər, stasionar nəzarətdə 836 nəfər saxlanılır. COVID mehmanxanada olan şəxslərin sayı isə 1000 nəfərdir.



# SEÇKİ PLAKATLARI VƏ MONA LİZANIN SİRLİ TƏBƏSSÜMÜ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Seçkilər gələndə elə gəlir ki, nə havanın ağına-bozuna, palçığına-tozuna baxır, nə də ölkənin iqtisadi durumuna, demokratik yorumuna fikir verir. Bu dəfə də seçkilər nə koronavirusu eyninə aldı, nə də qaydaları yada saldı. Çünki əlahəzrət qaydalar toylara, yaslara, ictimai basabaslara aiddir. Yəni ki, seçkilərlə bağlı on nəfərdən artıq toplaşa da bilərsən, gaplaşa da bilərsən, goplaşa da bilərsən. Nə sosial məsafə, nə də asosial məsafəsizlik seçkilərlə bağlı toplantılarda gözlənilmir. Koronavirusdamı siyasətə qarışmır, əcaba? Məntiqinizə şükür!

Məsafə demiş, bir neçə dəfə məktəblərimizin yanından keçərkən bu basabası orada da gördüm, şagirdlər sanki 2018-ci ilin virussuz sentyabrındakı kimi bir-birinə qaynayıb-qarışır, bir-biriylə yarışırdılar. Deyəsən, əlahəzrət qanun-qaydalar çox vaxt elə kağızlardaca qalır.

Mənim gəldiyim bu alaçiy nəticəyə çayxanada domino çırpan, ömrünün üçdə ikisini çayniki 1 larilik çay qurtumlayan yaşlı dayday əlində qalan şeş qoşaya acıqlanaraq qışqırır: – Qayda elə pozulduğu üçün qaydadır. Qayda pozulmayacaqdısa onu yaratmaq nəyə lazım olardı ki?! – Ətrafındakılar da ucuz çaydan bir qurtum alıb daydayın səsinə səs verirlər. Məntiqinə şükür!

Bu yerdə Həmid Herisçinin şeirini pıçıldayıram içimdə:

*...Nə yaxşıkı*
*həyat fanidi...*
*yoxsa, nə varsa əbədiləşərdi...*
*Kəfənlər də çürüməzdi...*
*Qəndlər də əriməzdi*
*bizim bu oğraş çayxanalarda...*

Və özümdən bir misra əlavə edirəm:

*Plakatlar da qopmazdı, cırılmazdı...*

Və dəhşətə gəlirəm... Təsəvvür edin, hər yer hər seçkilər zamanı yapışdırılmış milyonlarla əbədi plakatlarla dolub...

Səsinə səs verirlər demiş, seçkilərə gələndə səs verməyə getmirik, sonra da çayxanalarda, toyxanalarda oturub səsimizin oğurlanmasından şikayətlənirik. Axı, ölülərin də səs verə biləcəyi bir ölkədə dirilər niyə gedib halalca səslərini halalca namizədlərinə verməsinlər. Axı, sən də bu ölkənin vətəndaşısan, niyə özün özünü səsvermə hüququndan məhrum (mərhum da oxuya bilərsiz) edirsən, niyə bir vətəndaş balası kimi ölkədə gedən proseslərdə iştirak etmirsən, seçkilərə getmirsən?.. Çayxanada oturur, bəyəndiyi namizədin səs toplamamasından şikayətlənir. Get səs ver, toplasın da... Məntiqinə şükür!

Seçkilərdə ya səs verən olursan, ya söz verən. Səs verməyin söz verməkdən nəğd olduğu bir ölkədə, məhz səs verməklə verilən sözlərin də nəğd olmasına təsir etmək olar, yəni soğan olsun, nəğd olsun. Fikriniz beş kilo kartof, soğana getməsin. Əstəğfirullah!

Nəysə, yük qatarı relsdən çıxan kimi demək istədiyimdən sürüşdüm deyəsən. Demək istədiyim isə odur ki, onsuz da, hələ də Sovet dönəmini xatırladan boz, beton şəhərlərimizi namizədlərin rəngli seçki plakatları ilə "bəzəyib" "perestroyka" etməyin. Axı plakatları yapışdırmaq üçün xüsusi yerlər var. Camaatın darvazasına, qapısına, divarına, elektrik dirəklərinə, ağacların gövdəsinə, mağazalara, qəzet köşklərinə, parklara və daha nələrə və haralara seçki plakatları yapışdırılmaz, cənablar. Sonra da haqlı, haqsız həmin plakatları cırırlar, həm şəhər zibillənir, həm də cırılmış plakatlardan boylanan bir gözlü, yarı başlı insan portretləri xoşagəlməz mənzərə yaradır. Elə bir mədəni ölkə tanıyırsınızmı ki, orada təbliğat plakatları, elanlar ağacların gövdələrinə yapışdırıla? Mədəni ölkələrdə bunun üçün xüsusi yerlər var. Bizdə isə plakat yapışdırıb sonra da qopartmaq prosesi seçkilərdən uzun çəkir (Son söz birləşməsini istədiyiniz kimi yoza bilərsiniz).

Bəlkə də bizdə rəssamlığa, sərgi salonlarına çox dəyər verilmədiyi üçün hələ seçki təbliğatı aparmaq, plakat yapışdırmaq mədəniyyəti formalaşmayıb. Biz hələ Cokondanın təbəssümü ilə plakatlardan gülümsəyən namizədlərin təbəssümlərində tanış oluruq. Bəlkə də Avropa sənətşünasları Mona Lizanın təbəssümünün sirrini bizim namizədlərin başqalarının mülkünə icazəsiz yapışdırılmış plakatlarındakı təbəssümlərində axtarmalıdırlar. Bəlkə tapalar?.. Məntiqə şükür!

# BAŞ NAZİR: ÖLKƏDƏ SƏRT MƏHDUDİYYƏTLƏR OLMAYACAQ



"Gürcüstan hökuməti koronavirusa gündəlik yoluxma hallarında artımın olmasına baxmayaraq, ölkə ərazisində sərt məhdudiyyətlər tətbiq etməyəcək". Bu barədə baş nazir Giorgi Qaxaria bildirib.

Hökumət başçısı deyib ki, hazırda əsas prioritet iqtisadiyyatın sürətli bərpası və vətəndaşların sağlamlığını qorumaqdır.

"Bəzi lokal məhdudiyyətlər ola bilər. Lakin sistemli ciddi məhdudiyyətlər təkrarlanmayacaq", - G.Qaxaria bildirib.

# POLİS GÜCLƏNDİRİLMİŞ İŞ REJİMİNƏ KEÇİB



Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri parlament seçkilərinin azad, təhlükəsiz və dinc şəraitdə keçirilməsinin təmin olunması ilə bağlı əmr imzalayıb.

Əmrə əsasən, ölkənin bölgələrində polis bölmələrinin fəaliyyət göstərdiyi ərazilərdə qanun pozuntularının qarşısının alınması və onlara reaksiya verilməsi üzrə qruplar yaradılacaq. Polis əməkdaşları vəzifələrini yerinə yetirərkən siyasi bitərəflik prinsipinə ciddi əməl etməlidirlər.

Sənəddə qeyd olunub ki, polis məmurunun hər hansı bir siyasi partiyanın xeyrinə və ya ona qarşı yönələn hərəkət etməsi yolverilməzdir.

Qeyd edək ki, Gürcüstanda parlament seçkiləri oktyabrın 31-də keçiriləcək.

# GÜRCÜSTANIN MALİYYƏ NAZİRİ ASİYA İNKİŞAF BANKININ İDARƏ HEYƏTİNİN SƏDRİ SEÇİLİB



Gürcüstanın Maliyyə Nazirliyinin məlumatına əsasən, sentyabrın 17-18-də Asiya İnkişaf Bankının (ADB) onlayn formatda 53-cü illik toplantısı keçirilib.

İclas çərçivəsində maliyyə naziri İvane Maçavariani bir il müddətinə ADB-nin İdarə Heyətinin sədri seçilib. 2021-ci ildə bankın illik toplantısına Gürcüstan ev sahibliyi edəcək.

Nazir toplantıda çıxışı zamanı Gürcüstanın regional əməkdaşlıq və inteqrasiyaya böyük önəm verdiyini bildirib.

"Banka üzv və sərhədyanı ölkələrlə nəqliyyat infrastrukturu, ticarət və gömrük əlaqələrini inkişaf etdirmək çox vacibdir. Biz gələcəyimizi daha çox inteqrasiya, daha çox açıqlıq və daha az manelər prinsipləri əsasında qurmalıyıq", - İ.Maçavariani bildirib.

O qeyd edib ki, ADB iqtisadiyyatın bərpasında insan kapitalı rolunun gücləndirilməsinə əhəmiyyətli töhfə verə bilər.

# MÜFTİ VƏZİFƏSİNDƏN İSTEFA VERİB



Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) müftisi Hacı Yasin Əliyev vəzifəsindən ayrılıb. O, öz istəyi əsasında sağlamlıq durumu ilə bağlı istefa verdiyini bildirib.

Y.Əliyevin vəzifəsini müvəqqəti olaraq Hacı Eyvaz Mərdanov icra edəcək.

Yeni müfti yaxın gələcəkdə BGMİ-nin Ali Dini Şurası tərəfindən seçiləcək.

Qeyd edək ki, Gürcüstanda iki müfti var. Onlardan biri Kvemo Kartli, digəri isə Acarıstan bölgəsi üzrədir.

## GİORGİ QAXARİA AZƏRBAYCAN VƏ ERMƏNİSTANA GÜRCÜSTANDA DANIŞIQLAR APARMAĞI TƏKLİF EDİB




Baş nazir Giorgi Qaxaria Azərbaycan və Ermənistan arasında baş verən hərbi toqquşmalarla bağlı bəyanat yayıb.

G.Qaxaria təəssüflə qeyd edib ki, hərbi əməliyyatların dayandırılması və dialoqun bərpası hələ mümkün olmayıb: “Hamıya yaxşı məlumdur ki, vəziyyətin gərginləşməsi bütün bölgənin təhlükəsizliyinə olduqca mənfi təsir edəcək. Biz bir daha ATƏT-in Minsk qrupunu və beynəlxalq təşkilatları münaqişənin eskalasiyasına son qoymaq və dialoqun bərpası üçün imkanlarından maksimum istifadə etməyə çağırırıq”.

Baş nazir Gürcüstanın Azərbaycan və Ermənistanla mehriban qonşuluq münasibətlərinə malik olduğunu vurğulayıb: “Gürcüstanda yaşayan bizim azərbaycanlı və erməni vətəndaşlarımız tarixən ölkənin və bütünlükdə regionun inkişafı və güclənməsində böyük rol oynayıblar. Eyni zamanda onların bir yerdə dinc şəraitdə yaşaması onu göstərir ki, gürcü, erməni və azərbaycanlılar Cənubi Qafqazı sülh və tərəqqi məkanına çevirə bilərlər”.

G.Qaxaria deyib ki, ümumi maraq bölgədə sülhü mümkün qədər tez bir zamanda bərpa etməkdir: “Gürcüstan istənilən vasitə ilə bu prosesi təşviq etməyə hazırdır, həmçinin münaqişə tərəflərinin dialoq üçün Tbilisidə görüşünü təşkil edə bilər”.

*Mənbə: report.az*

## NATO-NUN BAŞ KATİBİ: GÜRCÜSTAN NATO-NUN ƏN ƏSAS TƏRƏFDAŞLARINDAN BİRİDİR

“Gürcüstan NATO-nun ən əsas tərəfdaşlarından biridir”. Bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Brüsseldə baş nazir Giorgi Qaxaria ilə keçirdiyi görüşdən sonra bildirib.

Baş katib deyib ki, Gürcüstan NATO-nun təhlükəsizliyi və missiyalarının uğurlarına verdiyi töhfələrlə fəxr etməlidir: “Biz təhlükəsizlik sahəsi, təlimlər, Əfqanıstandakı missiya da daxil olmaqla bir sıra digər istiqamətlər üzrə olduqca sıx əməkdaşlıq edirik. NATO və Gürcüstan arasındakı möhkəm və sıx əlaqələri yüksək qiymətləndirirəm”.

G.Qaxaria isə öz növbəsində bildirib ki, NATO və Gürcüstan arasında əməkdaşlıq dərinləşdirilməlidir: “Bizim üçün



ən vacib məqam Qara dəniz bölgəsindəki təhlükəsizlik sahəsində Gürcüstanın yeni rolu və funksiyasından ibarətdir. Bu, NATO ilə münasibətlərin dərinləşdirilməsi üçün imkandır”.

*Mənbə: report.az*

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI YENİ SƏFİRİ ETİMADNAMƏSİNİ TƏQDİM EDİB



Azərbaycanın Gürcüstana təyin olunan yeni səfiri Faiq Quliyev etimadnaməsinin surətini Gürcüstanın xarici işlər naziri David Zalkalianiyə təqdim edib.

D.Zalkaliani F.Quliyevi səfir təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir ümidvar olduğunu bildirib ki, iki ölkə arasında yüksək səviyyəli strateji və dostluq əlaqələri bundan sonra daha da dərinləşdiriləcək.

Mərasimdən sonra keçirilən görüşdə tərəflər Gürcüstan-Azərbaycan əlaqələrinin hazırkı vəziyyətini və gələcək əməkdaşlığın perspektiv və istiqamətlərini müzakirə ediblər.

## TORPAQ, ƏGƏR UĞRUNDA ÖLƏN VARSA VƏTƏNDİR!



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Vətəni bir millətin yuvası, evinin damı olaraq adlandıra bilərik. Damsız necə ki, bir ev olmazsa eyni şəkildə vətənsiz bir millət də düşünülə bilməz. Vətən bir millətin, bir xalqın üzərində yaşadığı torpağa verilən addır. Vətən biz insanlar üçün çox qiymətli və əhəmiyyətli olmalıdır.

Dünyada çox sayda millət və onların da vətənləri vardır ki, hər ölkənin torpağı çox ciddi mübarizələr nəticəsində qazanılmışdır. Bir çox insan vətən torpağı uğrunda həyatını itirmiş, bir çox insan yaralanmış, qan tökmüşdür.

Vətəni qorumaq hər kəsin başlıca vəzifələrindən biri olmalıdır. Tarixə baxıldığında böyüklərimiz, babalarımız apardıqları mübarizələr sayəsində vətən torpaqlarını qorumuş, millətinin dağılmasının, bölünməsinin qarşısını almışdır. Vətən demək, insanların evi deməkdir, yuvası deməkdir.

Vətəni qorumaq yalnız vətən torpaqlarını qorumaqla yox, həm də o vətənin millətinin mədəniyyətinə, ənənəsinə sahib çıxmaqla olur. Vətən torpaqlarının yox olması bu ənənə və mədəniyyətlərin də eyni zamanda yox olması deməkdir. Bu səbəblə vətən torpaqlarını sevməmiz və qorumamız prioritetli hədəfimiz olmalıdır.

Yəqin ki, anladınız nədən söhbət açmaq istəyirəm? Bəli, artq 30 ildən çoxdur ki, erməni separatçıları tərəfindən işğal edilmiş torpaqların geri alınması zəmnində başladılmış əks hücum haqqında düşüncələrimi paylaşmaq istədim. Bu uğurda son bir neçə ildə artıq Azərbaycan əsgəri və ordusu bir neçə dəfə irəliləmək şansına nail olub. Mən bu hadisəyə müharibə yox, işğal olunan əraziləri geri qaytarmaq üçün mübarizə deyərdim.

Bu mövzuyla bağlı illərdir ki, beynəlxalq təşkilatlar, bir çox xarici ölkələr maraqlansalar da ortaya bir şey çıxmayıb. Görünən odur ki, elə bu vasitəçilərin özləri də buna can atmırlar. Hətta atəşkəsi pozub dinc və əliyalın əhalini qətl edən tərəf ermənilər olsa belə Azərbaycanı qınayırlar. Ancaq məsələyə istər hüquqi yöndən, istər sivil yöndən, istərsə də dini yöndən baxsan Azərbaycan hökuməti bu məsələdə öz vətənini qorumaq yönündən haqlıdır. Çünki vətən bütün müqəddəs dəyərlərin toplandığı yerdir. Artıq o, bir torpaq parçasından çox bütün milli və mənəvi dəyərlərin yaşandığı bir mühitdir. Əsrlərdir ki, Azərbaycan xalqı o torpaq uğrunda minlərlə, bəlkə də milyonlarla can fəda edib. Məşhur şair Mithat Camal Kuntayın dediyi kimi:

Bayraqları bayraq edən üstündəki qandır,
Torpaq, əgər uğrunda ölən varsa Vətəndir!

Məhz bu səbəblə də bu gün Azərbaycan əhalisi öz vətənini, torpağını qorumaq üçün səfərbər olmuşdur. İllərdir sülh danışıqları adı ilə xalqın qarşısını kəsməyə çalışdılar. Ancaq qəhrəman xalq öz vətənini qorumaq arzusu ilə yanıb tutuşmaqdadır.

Bu haqlı davasında Azərbaycan hökumətinə və qəhrəman ordusuna uğurlar diləyir, bu uğurda dünyasını dəyişənlərə Allahdan rəhmət, yaralılarına şəfa diləyirəm.

Yaxın günlərdə bütöv Azərbaycan sədalarını eşitmək ümidi ilə!

## GÜRCÜSTANDA AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN SAYI AZALIB



Hazırda Gürcüstanda Azərbaycan dilində tədris aparılan 119 məktəb fəaliyyət göstərir.

Bunu "Report"un yerli bürosunun sorğusuna cavab olaraq Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin Təhsilin İdarəolunması üzrə İnformasiya Sistemi Mərkəzindən bildirilib.

Ötən illə müqayisədə məktəblərin sayı azalıb. Belə ki, 2019-2020-ci tədris ilində ölkədə azərbaycandilli 120 məktəb olub.

2020-2021-ci dərs ilində fəaliyyətdə olan dövlət məktəblərinin 79-u azərbaycandilli, 35-i Azərbaycan-gürcü, 2-si Azərbaycan-erməni, 2-si Azərbaycan-rus, 1-i isə Azərbaycan-rus-gürcü dillidir. Təhsil ocaqlarının 106-sı Kvemo Kartli, 10-u Kaxeti bölgəsi, 3-ü isə Tbilisidə yerləşir.

Ötən tədris ilində azərbaycandilli orta məktəblərdə 24 956 şagird təhsil alıb.

## ALİ VƏ PEŞƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DƏRSLƏR 19 OKTYABRDA BAŞLAYACAQ, UŞAQ BAĞÇALARI İSƏ OKTYABRIN 12-Sİ FƏALİYYƏTƏ BAŞLAYACAQ



Qurumlararası Komissiyanın qərarına əsasən, Acaradan başqa bütün ölkə miqyasında ali və peşə təhsil müəssisələrinin auditorialarında təhsil 19 oktyabrdan bərpa olunacaq. Bu haqda təhsil naziri Mixeil Çxenkeli bəyanat verib: "19 oktyabr tarixində Acaradan başqa hər yerdə tələbələr universitetlərə və peşə təhsil müəssisələrinə qayıdacaqlar. Bu mərhələli şəkildə olacaq, yəni biz ətraflı müşahidə aparırıq və tarixlər adaptasiya prosesinin mərhələlərini nəzərə almaqla seçilib. 12 və 19 oktyabr bazar ertəsinə təsadüf edir və şagirdlərin və tələbələrin sinif otağına və auditoriyalara qayıtması mərhələli şəkildə həyata keçiriləcək".

Nazir 4 böyük şəhərdə yenə də distant qaydada təhsilə davam edən VII-XII siniflərin şagirdləri ilə bağlı qərarın yaxın günlərdə məlum olacağını da bildirib: "1-ci sinifdən 6-cı sinfə qədər olan şagirdlər 1 oktyabrdan məktəbə qayıdır. 7-ci və 12-ci sinif şagirdləri ilə bağlı yaxın gələcəkdə bəyanat verəcəyik".

Onun sözlərinə görə, hökumət Acaradan başqa hər yerdə uşaq bağçalarında tədris prosesinin 12 oktyabrdan bərpa olunmasına qərar verib.

*Mənbə: edu.aris.ge*

## TƏHSİL NAZİRİNİN MÜAVİNİ: MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI 2021-Cİ İLDƏN ARTACAQ



Müəllimlərin əməkhaqqı 2021-ci ildən artacaq. Qeyd olunan bəyanatı Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Eka Dqebuadze verib.

Onun sözlərinə görə, müəllimlərin peşəkar inkişaf modeli yenə dəyişəcək və daha maraqlı olacaq, ancaq pedaqoqların nə zaman və hansı yenilikləri gözləməli olduqları ilə bağlı nazir müavini konkret məlumat verməyib.

"Bizim məqsədimiz var, müəllimlərin peşəkar inkişafının daha maraqlı modeli üzərində çalışırıq. 2021-ci ildən müəllimlərin əməkhaqqının artırılması da planlaşdırılır", - deyə E.Dqebuadze bildirib.

Xatırladaq ki, 2020-ci ilin büdcə layihəsində qeyd edilmişdir ki, müəllimlərin əməkhaqqı 2020-2021-ci il ərzində iki dəfə 150 lari olaraq artırılacaq. Yeni tədris ilinin başlanğıcında əməkhaqları 150 lari artmalı idi, ancaq "etaloni.ge"nin məlumatına görə, nazirlikdən bildiriblər ki, əməkhaqlarının artırılması ilə sərəncam hələ ki, yoxdur və təklif yenə də təşəbbüs olaraq qalır.

## TƏHSİL NAZİRİ: VALİDEYN İSTƏRSƏ ÖVLADI TƏHSİLİNİ DİSTANT QAYDADA ALACAQ

Təhsil naziri Mixeil Çxenkelinin sözlərinə görə, əgər valideyn istərsə uşağı təhsilini distant qaydada davam edəcək.

"Bu proses məktəblər tərəfindən təşkil olunacaq. Təhsilin distant qaydada davam etdirilməsi ilə bağlı valideyn məktəbə müraciət edəcək, onu qeydiyyatdan keçirəcəklər və tələbi təmin olunacaq. Bu, maksimum dərəcədə sürətli sistemdir və hamının maraqlarına yönəlib", - nazir bildirib.

Koordinasiya Şurasının qərarı ilə 1 oktyabrdan Tbilisi, Rustavi, Kutaisi və Zuqdididə I-VI sinif şagirdləri dərslərə sinif otaqlarında başlayacaqlar.

Qori və Potidə dərslər distant qaydada keçirilir və oktyabrın 1-dən bütün şagirdlərin sinif otağına qayıtmaq imkanı olacaq.

Nazir həmçinin bildirib ki, xüsusi ehtiyacı olan şagirdlərin məktəb ərazisində xüsusi müəllimlə görüşmək imkanı olacaq.

*Mənbə: etaloni.ge*

## SOSİAL MÜDAFİƏSİZ TƏLƏBƏLƏRİN TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİ İLƏ BAĞLI ELEKTRON QEYDİYYAT BAŞLAYIB



Sosial müdafiəsiz tələbələrin təhsil haqqını maliyyələşdirmək üçün elektron portal – www.student.moh.gov.ge fəaliyyətə başlayıb. Qeydiyyat 2020-ci ilin 1 noyabr tarixinə qədər davam edəcək.

Elektron portalda "Sosial müdafiəsiz ailələrin vahid məlumat bazasında" qeydiyyatdan keçmiş və 2020-ci ilin 1 sentyabrına olan vəziyyətə görə ailənin reytqin balı 150 000-dən az olan tələbənin valideyninin də qeydiyyatdan keçmək imkanı olacaq.

Qeydiyyatdan keçmək üçün lazım olan məlumatlar:

1) Valideynin adı, soyadı və şəxsi nömrəsi;

2) Tələbənin adı, soyadı, şəxsi nömrəsi və lazım olduğu halda şəxsiyyəti təsdiq edən sənədin və doğum şəhadətnaməsinin sistemə daxil edilməsi.

Məlumata görə, hazırlanmış siyahı Təhsil Nazirliyinə veriləcək. Nazirlik müvafiq prosedurları həyata keçirəcək ki, 2020-2021-ci təhsil ilinin payız semestrinin təhsil haqqı, yaxud 2019-2020-ci təhsil ilinin payız semestrinin təhsil haqqı, və ya 2019-2020-ci təhsil ilinin yaz semestrində 2020-ci ilin 1 yanvarından ödəniləcək təhsil haqqı maliyyələşdirilsin.

Xatırladaq ki, avqust ayının sonunda baş nazir Giorgi Qaxarianın sərəncamı əsasında ali təhsil müəssisələrinin sosial müdafiəsiz tələbələrin təhsil haqqını maliyyələşdirməsi məqsədi ilə sosial yardımla təmin etmək üçün qayda və şərtlər müəyyən edilib.

## XALQ MÜDAFİƏÇİSİ YANINDA DİNLƏR ŞURASI: "MƏKTƏBLƏRDƏ DİN TƏDRİSİ TƏHLÜKƏLİ OLA BİLƏR"

Xalq Müdafiəçisi yanında Dinlər Şurası dini azlıq nümayəndələrinin və dini azadlıq problemləri ilə bağlı tövsiyələr hazırlayıb. Sənəddəki başlıqlardan biri təhsilə aiddir və dini azlıqların inteqrasiyası baxımından mövcud olan uğur və problemlərdən söhbət açılır.

Tövsiyədə bildirilir ki, son vaxtlar Gürcüstanda məktəblərdə din tarixi tədrisinin bərpası ilə bağlı intensiv danışıqlar təhlükəli olacaq: "Son illər ərzində məktəblərdə yeni bir məcburi fənnin – "din/din tarixinin" tədris edilməsi ilə bağlı söhbətlər gedir. Dini məsələlərin tez-tez ayrı-seçkilik mənbəyi olduğu və məktəbin bitərəflik prinsipinə düzgün əməl etmədiyi bir vəziyyətdə, müəllimlərin müxtəlif konfesiyalara qarşı tez-tez tendensiyalı yanaşmalar göstərdikləri bir halda din tədrisinin qüvvəyə minməsi təhlükəli ola bilər".

Xalq Müdafiəçisi yanında Dini Şura öz mövcudluğu ərzində üçüncü sənəd təqdim edib. Sənəddə inanc və dini azadlıq baxımından ölkədə vəziyyətin necə olduğu göstərilib. Qeyd olunan məsələlərin müzakirə olunacağı görüşdə media və təhsil məsələləri üzrə ekspert Nino Tsintsadze və Gürcüstanın Evangelist-Baptist kilsəsinin yepiskopu Rusudan Qotsiridze müzakirə aparıb.

*Səhifəni hazırladı:* ***Aynurə ƏLİYEVA***

# İOSİF QRİŞAŞVİLİNİN
# "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
## YUMRUQ DAVASI

*(əvvəli ötən sayda)*

Boksun növü çox idi:
**Yumruq davası,**
**Xridoli (boks bir əllə),**
**Saldasti – daş boksu** (Özlüyündə qılınc deməkdir. Boks sapand daşı ilə və taxta qılınclarla – M.M.)

Ən çox yayılan yumruq davası və saldasti boksu idi. "Yumruq davasını yayda şəhərin küçələrində, saldasti boksunu qışda şəhərdən kənar keçirirdilər. Saldasti boksu xüsusilə diqqət çəkib. Boksun camaatın adətinə söykənən öz qaydaları olub. Yumruq davasında əldən alınan silah, kəmər, papaq, istərsə də yapıncı qanuni qənimət hesab olunurdu. Şəhərdə boks keçiriləndə tamaşaçılar evin damına çıxırdılar, onun üstünü doldururdular, oradan savaşa baxırdılar və ərkli mübarizlərə şərik olduqlarını ifadə etməklə onları gümrahlandırırdılar. Şəhər kənarında onlar sapandla və taxta qılınclarla mübarizə aparanda tamaşaçılar elə irəlicədən təpələri, yüksəklikləri tuturdular. Yumruq davasına, ələlxüsus, gənclər meyl edirdilər. Bu heç də təəccüblü deyildi. Yumruq davasında qalib gələn və ad qazanan bir igid gürcü qadınına daha qəşəng görünürdü. Yumruq davakarları da nə qədər ad qazanmağa cəhd göstərirdilərsə, bir o qədər də özlərinin "iki gözünün işığı"nın xoşuna gəlmək, lütfkarlıq etmək üçün özlərini göstərməyə cəhd edirdilər. Yumruq davasının öz gerçək tərəfi var idi: Gürcü kişisi elə kiçik vaxtlarından hərbi üsullar üzrə məşq keçirdi, ona təbiətən bəxş edilən sağlam düşüncəsini, gələcəyi görmə qabiliyyətini təlimləndirirdi, mərdlik, cəldlik üzrə məşq edirdi. Bir sözlə, yumruq davasında hərbi fəaliyyət üçün qiymətli olan bütün xüsusiyyətləri mənimsəyirdi" *("İveriya", 1885-ci il, № 1).*

David İosebidze Bebutovun memuarlarını nəzərə almasaq, yumruq davasının çox kasıb ədəbiyyatı vardır. *("Военный Сборник", 1867-ci il, №6 və 7). Bu, Dubrovinin ("Тифлисский Листок", 1899-ci il, №165, şəkillərlə əlavə, №8), Pottonun (История войны и владычества русских на Кавказе», I cild, II kitab, səh.146),* Veidenbaumun *("Кавказкий Календарь", 1855-ci il)* və başqalarının müxtəlif variasiyalarla təkrar etdiyi yeganə mətbu materialdır.

Bax, bu Bebutov saldasti boksunu təsvir edib, hansında ki, özü də iştirak edib. Oxucunun bu amansız köhnəsayağı boks barədə təsəvvürü olsun deyə həmin yazıdan bir parçanı nəzərinizə çatdırırıq:



**"Döyüşü biz başladıq, – Bebutov nəql edir, – aşağı məhəllənin uşaqları. Mən irəli atıldım və başqaları ilə birlikdə sapandla daş atmağa başladım. Kəmərimə taxta qılınc bağlamışdım və sol çiynimə yapıncı örtmüşdüm. Elə ki yaxına getdik, rəqiblər bir-birlərini qılınca dəvət edirdilər. Bir ərkli gənc mənim önümdə atılıb-düşürdü və mənim sapandımdan özünü gözləyirdi. Biz toqqaşdıq və bir-birimizlə qılınc çalmağa başladıq. Mən rəqibimi yaraladım. Lakin o da mənim qaşımı çapdı. Böyüklər arasında daş, yalama atma və əlbəyaxa döyüş davam edirdi... Mən tamaşaçı olaraq qaldım, dəf etmək, üstün gəlmək heç bir tərəfdə görünmürdü. Bizimkilər gecəyarısı xəlvəti yuxarı tərəfin ətrafını yoxlamaq üçün, demək olar ki, altı verstə qədər, bir dəstə göndərdilər. Bu dəstəyə bazar ertəsi çıxmaq, saat on ikidə Sololak dağını aşmaq və düşmənə yetişmək əmri verilmişdir. Eyni zamanda, bu dəstə düşmənin arxasından atmaq üçün dağda, Okroxanadan başlamış ən yaxşı sapand atanları yerləşdirməli idi... Hər iki tərəfdən minlərlə sapand atanlar çıxdılar və bir-birlərinə daşları dolu kimi yağdırmağa başladılar. Hər yerdə qızışmış toqquşma var idi. Daşlara hədəf olanlar özünü dağdan atmağa cəhd edirdilər, lakin yoldaşları maneəçilik törədirdilər və savaş yenə tarazlaşdırılırdı. Mübarizə demək olar ki, bir saat davam edirdi və aşağı məhəllələr hər halda dağın yarısını almağa müvəffəq oldular və başlarını vıyıltı ilə gələn sapand daşlarından yapıncı ilə qoruyurdular... Qəflətən dəhşətli bağırtı eşidildi. Məşhur mübarizlərin adı bütün camaatı və döyüşçüləri şimşək kimi bürüdü, elektronsayağı qığılcım damarlarda oynadı. Zurna və düdüyün qulaqbatırıcı naləsi ətrafı bürüdü. Müharibə od kimi alışdı. İndi taxta qılınclardan, daşlardan daha istifadə etmirdilər. Yumruq davasının qaydasına görə, qılıncla toqquşmada daşlardan istifadə etmək qorxaqlıq hesab olunurdu. Yuxarı məhəllələr zəiflədilər və geri çəkildilər. Aşağı məhəllələr dağı tutdular və düşmən Sololak dərəsinə doğru qaçdı"** *("Кавказкий Сборник", 1902-ci il, XXIII cild, səh. 14, tərtib etdi "İveriya", 1885-ci il, № 1, səh. 117).*

Çox hallarda bu fiziki məşq, Avksenti Saqarelinin dediyinə görə, bu "yumruq davasının gurultusu" fiziki eybəcərliklə də sona yetir. "Yumruq davasının o birisi günündə bəzən başı yarılmışlar, gözləri çıxmışlar, burunları qırılmışlar bol olurdu" *("Кавказ", 1846-cı il, № 1).*

Halbuki, sapandlar balaca ölçüdə idi, qılınclar da taxtadan, lakin hər halda bu "yumruqsuz boks" qorxulu və sığortalanmamış idi... Buna baxmayaraq demək lazımdır ki, bu "ağız-burun qırmaq" heç də yaramaz hisslərə səbəb olmurdu və çox hallarda belə eybəcər hala düşmüşlər, barışıq əlaməti olaraq kef çəkilən yerlərə gedir, birgə vaxt keçirirdilər.

Yumruq davası bir fiziki məşq olaraq öz xarakteri və təyinatı ilə başqa millətin məişətinin əmələ gətirdiyi (boks, güləş və sair) elə bu cür xarakterli məşqlərdən heç də fərqlənmirdi. Ümumi səbəblər ümumi xarakterli məşqə də səbəb olur: Yeknəsək fiziki əmək ilə yorulan bədən, qanın süstləşmiş hərəkəti onun təmizlənməsini tələb edirdi və tiflisli sənətkarlar da özlərinin "yoğun biləklərinin sümüklərini" şaqqıldatmaq üçün, ingilislərin boksa müraciət etdiyi kimi yumruq davasına müraciət etdilər.

Saldasti yumruq davası canişin Baryatinskinin dövründə həmişəlik olaraq qadağan edildi. Yalnız yumruq davası qaldı ki, bu da yetmişinci illərə qədər mövcud oldu. Şəhər kənarında keçirilən, bu son vaxtlara qədər qalan yumruq davasının polisin nəzarəti ilə öz qaydaları işlənib hazırlanmışdı. Çox hallarda bəzi boksçunun dəhşətli dərəcədə möhkəm solaxay əli var idi, kimə vursaydı – qurtardı, sağ ayağa qalxa bilməzdi. Bax, bunun kimi boksçu söz vermişdi və ya, deyilənə görə, "kağız imzalamışdır" ki, o, bir daha yumruq davasına çıxmayacaq... Lakin hər cür qərardan yan keçildiyi kimi, əlbəttə, bundan da yan keçirdilər, – "imza kağızı" elə kağız olaraq qalırdı və bu yumruq davası da bəzən öz qurbanına səbəb olurdu, halbuki, saldasti yumruq davasında olduğu qədər deyil.

Krtsanisi qəbiristanlığında bir neçə il bundan əvvəl bir qəbir gördüm, qəbir daşının yazısından göründüyü kimi, burada uyuyan saldasti yumruq davasının qurbanı olub. Budur həmin epitafiya:

***"Ürəyimə daş dəydi, dəhşət bürüdü məni,***
***Dörd yanımı bürüdü yaşıdlarım-əsgərlər;***
***Dolandırdılar qala qapısına məni,***
***Zavallı anamın ağlı üstündə qalsın,***
***Hamı mənə bir rəhmət diləsin".***

*(Sətri tərcümə)*

*(davamı gələn sayda)*

**Gürcü dilindən tərcümə edən:**
**Mirzə MƏMMƏDOĞLU**



# ƏRİNDİYİMİZ YERİN ADI

*Gün çıx, çıx, çıx!*
*Kəhər atı min, çıx!*
*Oğlun qayadan uçdu,*
*Qızın təndirə düşdü...*

Ərindik. Harada ərindiksə oradaca ilişib qaldıq. Çoxumuz çox yerdə ərindik. Bir yerdə problemimiz varsa da deməli hardasa ərinmişik. Dünən etməyə ərindiyimiz hər şey bu gün qarşımıza problem kimi çıxır. Və ərindikcə böyüyür. Ərindiyimiz nöqtəyə qayıtmağa da ərindikcə qaldığımız yerdəcə qalırıq. İrəli gedə bilmirik, qarşımızda problem var, hansı ki, ərindiyimiz yerdən mayalanır və qaldıqca da böyüyür.

Hardamı ərindik, nəyəmi ərindik? – Çox yerdə, çox şeyə. İşimizdə peşəkar deyiliksə olmağa ərindik. Oğurluq etdiksə özümüz qazanmağa ərindik. Qumarbaz olduqsa 10 ilə qazanmağa ərindik və birdən qazanmaq eşqinə düşdük. Dil bilənə hər dəfə minnət etməkdən oysanmadıq, amma dil öyrənməyə ərindik. Gedib gözümüzlə görməyə ərindik, gəlib ağlına gələni danışanlara inanmaqdan üşənmədik. Həqiqəti araşdırmağa ərindik, amma aldanmaqdan iyrənmədik. Gördüyümüzü qoyub görəcəyə getmədik. İllərdi bir kəlmədən tutub durduq. Gördüyümüzə sarılıb görəcəyi yaxın buraxmadıq, təpdik. Elə gördüyümüz də, görəcəyimiz də elə yenə "gördüyümüz"oldu.

Oğlu "qaya çapmağa" göndərdik, qızı "çörək bişirməyə". Qoymadıq gündəklərinə gün dəyməyə. Oğul "qayadan uçdu", qız da ki, "təndirə düşdü". Sonra da başladıq "Günəşi çağırmağa". Beləcə istisnalar müstəsna, müstəsnalar istisna olur.

Kölgədə oturan adam üçün "günəş" də "ay" da – ikisi də birdir.Günəşi təpib özünə yaş odundan ocaq qalayanın isə əyni həmişə tüstülü olur.

Bizim qoçaqlığımız bizi geriləməyə qoymaya bilər, amma irəliləməyə yetmir. Oturub günəşi şüa keçirməyən kölgəmizə çağırmaq əvəzinə bəlkə "kəhər atı" minib günəşə sarı gedək? Atın yanına getməyə isə ərinməyək. Əriniriksə, atısa çağıraq. At gələr, at murazdı.

*Səni qayadan asarlar!*
*Buduna damğa basarlar!*
*Gün getdi dağ başına,*
*Könlü şamama istəyən*
*Dolansın tağ başına.*

*Həmid SADIX*

## 10 440 NƏFƏRDƏN 7 706-SI MÜƏLLİMLƏR İMTAHANINDAN KƏSİLİB



2020-ci ilin müəllimlər imtahanında 10 440 nəfər iştirak edib. Onlardan 2 734-ü imtahanı uğurla verib. Bu haqda "etaloni.ge"yə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzindən məlumat verilib.

Bu o deməkdir ki, 7 706 iştirakçı imtahandan kəsilib.

2020-ci ilin sertifikat imtahanına 11 908 aplikant qeydiyyatdan keçib və onlar arasında "axtaran" müəllim olmaq istəyənlər də var.

Xatırladaq ki, təcrübəçi müəllimlər üçün kompetensiyanın təsdiqlənməsi imtahanına qeydiyyat sentyabrın sonunda elan edilməlidir.

## GÜRCÜSTANIN ALİ MƏKTƏBLƏRİNƏ QƏBUL OLAN AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN SAYI ARTIB

2020-2021-ci dərs ili üzrə Gürcüstanın ali məktəblərinə qəbul olan azərbaycanlı tələbələrin sayı 956 nəfər təşkil edir. Bu barədə Gürcüstanın Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzindən bildirilib.

Həmin tələbələrin 99-u dövlət qrantı hesabına təhsil alacaqlar.

İllik müqayisədə tələbə adını qazanan azərbaycanlı gənclərin sayı 44, dövlət qrantı qazananların sayı isə 3 nəfər artıb.

Azərbaycanlı tələbələrin 935-i universitetlərə milli azlıqlar üçün nəzərdə tutulan "1+4" proqramı üzrə daxil olublar. Onlar bir il ərzində gürcü dilini öyrəndikdən sonra seçdikləri ixtisas üzrə bakalavr pilləsində təhsil almaq imkanı əldə edəcəklər.

Tələbələrin böyük əksəriyyəti İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Gürcüstan Texniki Universiteti və İlia Dövlət Universitetində təhsil alacaqlar.

*Mənbə: report.az*

## ELEKTRON ATTESTATLARIN VERİLMƏSİNƏ BAŞLANILIB

Gürcüstanın Dövlət Xidmətlərinin İnkişafı Agentliyi elektron attestatların verilməsinə başlayıb. Elektron attestat sənədin əsli ilə eyni hüquqi qüvvəyə malikdir.

Məktəb məzunları sənədi almaq üçün ilk öncə Ədliyyə evinə, icma mərkəzlərinə və ya Dövlət Agentliyinin filiallarına müraciət etməlidirlər. Sənədi alandan sonra məzun istənilən vaxt "my.gov.ge" saytında sənədin elektron variantını sənədin kodu və müraciət nömrəsinin köməyi ilə ala bilər.

Attestatların verilməsinə görə bu ilin dekabrın 31-dək heç bir ödəniş tələb olunmayacaq. Sənəd müraciət edildəndən 10 gün sonra verilir.

*Mənbə: newsbureau.ge*


საქართველო GEORGIA
სრული ზოგადი განათლების ატესტატი
GENERAL EDUCATION DIPLOMA
Name:
Last Name:
Date of Birth:
Personal №:
Date of Print:
Minister of Education, Science, Culture and Sport of Georgia:

## AZƏRBAYCAN GÜRCÜSTANA YENİ DƏRSLİKLƏR GÖNDƏRİB

Yeni tədris ilinin başlaması ilə əlaqədar Azərbaycanın Təhsil Nazirliyi Gürcüstandakı Azərbaycan məktəblərinə 23 adda 21 613 ədəd dərslik və metodik vəsait göndərib.

Dərsliklər sentyabrın 22-də Təhsil Nazirliyinin və Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşlarının müşayiəti ilə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə təhvil verilib.

Qeyd edək ki, son 5 ildə Təhsil Nazirliyi tərəfindən Gürcüstanın Azərbaycan dilində tədris aparılan məktəblərinə 94 762 ədəd dərslik və metodik vəsait göndərilib.

## GÜRCÜSTANIN BEYNƏLXALQ İNVESTİSİYA MÖVQEYİ PİSLƏŞİB




Milli Bankın məlumatına görə, Gürcüstanın xalis beynəlxalq investisiya mövqeyi - 23,5 milyard ABŞ dolları təşkil edir.

Bu ilin iyunun 30-na olan məlumata əsasən, bu göstərici rüblük müqayisədə 953,7 milyon dollar azdır və son 4 rübün ÜDM-nin -140,0%-ni təşkil edir.

Ölkənin xalis beynəlxalq aktivləri 10,7 milyard dollar olub ki, bu da rüblük müqayisədə 250 milyon dollar çoxdur.

Beynəlxalq öhdəliklər isə əvvəlki rüblə müqayisədə 1,2 milyard dollar artaraq 34,2 milyard dollara bərabər olub.

## AVROPA İTTİFAQI GÜRCÜSTANA 129 MİLYON AVRO AYIRIB



Avropa İttifaqı (Aİ) koronavirus pandemiyasına qarşı mübarizə və onun ölkə iqtisadiyyatına təsirlərinin öhdəsindən gəlmək üçün Gürcüstana 129 milyon avro məbləğində maliyyə yardımı ayırıb.

Bununla bağlı Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə komissarı Oliver Varheyli və Gürcüstanın baş naziri Giorgi Qaxaria arasında iki maliyyə sazişi imzalanıb.

Sənədlərə əsasən, 75 milyon avroluq qrantla Gürcüstan hökumətinin böhran əleyhinə planı dəstəklənəcək. Ölkənin bölgələrinin iqtisadi inkişafına isə 54 milyon avro həcmində qrant yönəldiləcək.

## GÜRCÜSTANDA DOLU VƏ GÜNƏŞDƏN QORUYAN TORLARIN İSTEHSALINA BAŞLANILIR



MMC "Aqrobade" şirkəti Kareli rayonunda kənd təsərrüfatı üçün dolu və günəşdən qoruyan torların istehsalı üçün ilk zavodun inşasına başlayıb.

Şirkət təsisçisi Avtandil Maisuradzenin "East Fruit"ə bildirdiyinə görə, zavodda istehsal 2021-ci ilin yanvar ayında başlayacaq və müvafiq təchizat Almaniyadan gətiriləcək.

A.Maisuradze deyib ki, dolu və günəşdən qoruyan torların istehsalı ideyası bazarı araşdırdıqdan sonra yaranıb. O, həmçinin "AntGeo" şirkətini təmsil edir. Şirkətin işi torların və suvarma sistemlərinin montajından ibarətdir. Şirkət Gürcüstan bazarının deyil, bütün regionun ehtiyaclarını araşdırıb və qonşu ölkələrin tələblərini də qane edəcək.

"Biz qoruyucu torları özümüz gətirib montaj edirik. Ona görə də, bazarı yaxşı araşdırdıq və bilirik ki, bu məhsula qarşı maraq və tələbat böyükdür. Çünki Gürcüstanda artıq çoxlu meyvə və giləmeyvə bağları var. Eyni zamanda yalnız Gürcüstanın deyil, həm də regionun tələblərini qane edəcəyik. Düşünürük ki, bizim məhsul qonşu ölkələrdə də rəqabət aparacaq. Çeşid dolu və günəş qoruyucuları ilə yanaşı tikinti torlarından da ibarətdir", - deyə A.Maisuradze bildirib.

Məlumat üçün qeyd edək ki, USAID-in dəstəklədiyi layihənin investisiya dəyəri 500,000 ABŞ dolları təşkil edir.

*Mənbə: bpn.ge*

# FAYDALI VƏ ZİYANLI SÜNİİ İNTELEKT



Hələ ta daş dövründən insanlar indiki dövdəki kimi öz işlərini daha tez və səmərəli görmək üçün müxtəlif yollara və vasitələrə əl atmışlar. Şübhə yoxdur ki, bəşər övladı məhz bu cəhdlər sayəsində günümüzdə dünyada istənilən sahədə asanlaşma və inkişaf əldə edə bilmişdir. Bu gün isə yeni-yeni kəşflərin adiləşdiyi, günü-gündən irəliləyən texnologiya dünyasında növbəti mühüm bir addımın atılacağı önəmli bir dövrə gəlib çatmışıq. Bu önəmli addım bizə insanoğlundan müstəqil şəkildə iş görə bilən qurğular, insansız işləyən fabriklər, insan əli dəymədən hazırlanan ərzaqlar, bəslənən heyvanlar, insanlar əvəzinə təhsil verə bilən, xəstələri əməliyyat edən robotlar, insanlar əvəzinə sistemlər quran, təşkilatları, qurumları, cəmiyyətləri idarə edə biləcək bir ağlın, şüurun – süni intelektin həyatımıza daxil olması haqqındadır.

Ən sadə məntiqi izahı olaraq, süni intelekt elektron əşyalara müxtəlif proqramlar yükləyərək onları insandan müstəqil şəkildə iş görə bilən ağıllı əşyalar halına gətirmək olduğunu deyə bilərik.

Süni intelekt ifadəsi ilk dəfə 1956-cı ildə amerikalı alim Con Makkarti tərəfindən istifadə olunub. Ötən əsrin ikinci yarısında bu ifadə yalnız "Maşın və qurğuları intellektual etmək elmi və mühəndisliyi" adı altında kiçik bir elmi nəzəriyyə kimi qiymətləndirilirdi. Ancaq keçən zaman ərzində süni intelekt sahəsindəki inkişaf təkcə bir çərçivədə deyil, kompüter elmləri, psixologiya, fəlsəfə, linqvistika, iqtisadiyyat, optimizasiya, məntiq nəzəriyyəsi və bir sıra başqa sahələrdə də tətbiqi texnologiya dünyasının əsas müzakirə mövzularından biri halına gəlmişdir.

Şübhəsiz ki, ötən hər dövr ərzində yeni texnoloji kəşflərin insanların istənilən işlərini necə asanlaşdırdığını və bu kəşflərin gündəlik həyatlarında tətbiqinin onlara əvvəlkinə nisbətən necə qat-qat fayda gətirdiyini inkar edə bilmərik. Ancaq süni intelekt sahəsindəki irəliləmələr nəinki təkcə potenisal fayda, artıq bir neçə nüfuzlu elm insanları tərəfindən də bəşər övladı üçün potensial təhlükə mənbəyi kimi də dəyərləndirilir. Buna səbəb kimi onlar hər bir bu sahədə çalışan və araşdırma aparan şirkətlərin öz məhsullarına yeni tələbatın formalaşdırılması üçün süni intelekti təkminləşdirərək daima bir-birləri ilə yarış içində olmasını göstərirlər. Bildiyimiz kimi, artıq dünya nəhəngləri "Apple", "Samsung", "Microsoft" kimi mobil qurğu və telefon istehsalçıları dar çərçivədə də olsa öz məhsullarında insanların istifadə etdikləri şəxsi mobil avadanlıqlarının axtarış siyahısının, telefon vasitəsilə verdikləri əmr və göstərişlər əsasında insanların gündəlik həyatlarına, yaşam tərzinə uyğun öz-özünü proqramlaşdıran aplikasiyalar yerləşdirmişdirlər. Düzdür, hazırda bunun bizə vaxt itkisinin qarşısını almaqda çox faydalı olduğunu görürük. Ancaq bəzi ekspertlərin fikrincə süni intelekt insan intelektini tam üstələdiyi zaman artıq ona əmrlər vermək və ya nəzarət etmək bizim üçün təkcə çətinlik deyil, həyati olaraq da təhlükə mənbəyi ola bilər.

Məşhur ixtiraçı və müasir dünyanın uğurlu iş adamlarından biri olan İlon Mask (Elon Musk) da yuxarıdakı potenisal mənfi təsirlərlə razılaşanlardan biridir. Ancaq o, məsələyə müsbət tərəfdən yaxınlaşmağa çalışır. İ.Mask mümkün ola biləcək təhlükəni aradan qaldırmaq üçün və süni intelekt sahəsindəki təkminləşdirilmələrlə yanaşı insanların bu yeniliyə uyğun həyat tərzinə keçməsini gələcək üçün əsas çıxış yolu kimi görür. Hazırda onun rəhbərliyi ilə qurulan "Neuralink", "Tesla", "SpaceX" kimi şirkətlər də məhz bu yeni texnologiyanın gələcək üçün tam təhlükəsiz istifadəsini təmin etmək üçün təcrübələr və araşdırmalar həyata keçirir.

Zaman keçdikcə texnologiyanın həyatın hər bir sahəsinə necə böyük dəyişikliklər gətirdiyinin və bunun sayəsində yeni elmlərin sayının necə sürətlə çoxaldığının və insanların bunu mənimsədiklərinin hamımız şahidiyik. Ümid edək ki, süni intelekt sahəsindəki növbəti irəliləmələr də bizi məhvə deyil, yüksəlişə aparacaqdır.

***Səlahəddin PİRİYEV***

*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 SENTYABR
2020-Cİ İL
№013 (117)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## "KLASTER", "SANİTAYZER", "SEROPREVALANS TƏDQİQATI" – YENİ KORONAVİRUS LÜĞƏTİ




*Koronavirus qayıtdı? – Yox! Doğrudur, səlahiyyətli şəxslər bizi inandırmağa çalışırdılar ki, virus heç bir yerə getməyib ki, qayıtsın. Amma, hər halda, indiyə kimi gün ərzində 200-dən artıq yoluxma halı qeydə alınmırdı. İndi yaranmış reallıq daha çox ehtiyatlı olmağa əsas verir. Ölkənin baş epidemioloqları ölkə miqyasında koronavirusla mübarizə aparana qədər lüğətimizə yeni sözlər daxil oldu. Bu sözlərin mövcudluğundan xəbər tutmasaydıq daha yaxşı olardı, ancaq dünyada pandemiya reallığı olduğuna görə "etaloni.ge" son aylarda məşhur olan sözlərin açıqlamasını təqdim edir:*

**Pandemiya** – pandemiya (yunanca pandemiya ümumxalq deməkdir) – epidemiya, yoluxucu xəstəliklərin regionda, yaxud bütün dünyada yayılması xarakterini daşıyır.

**Termoskrininq** – bədən hərarətinin xüsusi cihazla ölçülməsi.

**Klaster** – latın sözüdür, sıxlıq, topluluq, dəstə deməkdir.

**Karantin** – yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması üçün xəstəliyi olanlar və onlarla təmasda olmuş şəxslərin müvəqqəti təcridi.

**İzolyasiya (Təcrid)** – orqanizmlərin bir-birindən ayrılması.

**Onlayn-dərs** – müasir texnologiyalardan istifadə edərək internet vasitəsilə keçirilən dərs.

**Seroprevalans tədqiqatı** – tədqiqatın bu prosesi seçmə metoddan istifadə etməyi nəzərdə tutur.

**PCR testi** – Polimeraz zəncirvari reaksiya, PZR testi (ing: Polymerase Chain Reaction, PCR). Bu test zamanı nazofarengial sürüntüdən (burun-udlaqdan yaxma) alınan materiala baxılır. PZR alınan nümunədə hətta çox az miqdarda olan DNT-nin amplifikasiyasına və mikroorqanizmin müəyyənləşdirilməsinə imkan verən bir üsuldur. DNT-əsaslı üsullar xəstəliyin agentinin birbaşa nümunədən aşkar olunmasını təmin edir. Bu isə xəstəliyin diaqnozunun daha tez qoyulmasına və müalicə müddətinin erkən başlanmasına kömək edir.

**Təmas** – birbaşa əlaqə, toxunmaq.

**Distansiya** – iki subyekt arasında müəyyən məsafə.

**Dezobariyer** – dezinfeksiya məhlulu ilə isladılmış, giriş-çıxışlar üçün nəzərdə tutulmuş kiçik xalça.

**Sanitayzer** - əl üçün dezinfeksiya məhlulu.

## 2020-Cİ İLİN 6 AYI ƏRZİNDƏ BOŞANANLARIN VƏ EVLƏNƏNLƏRİN SAYI AZALIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin birinci yarısında boşanma və evlənmə sayı azalıb.

Konkret olaraq, cari ilin yanvar-iyun aylarında evlənmə sayı 6 387, boşanma sayı isə 3 441 təşkil edib.

Ötən ilin analoji dövründə isə evlənmə sayı 10 480, boşanma sayı 5 295 təşkil edirdi.

## ÇAĞDAŞ GÜRCÜ-AZƏRBAYCAN POEZİYA ANTALOGİYASININ TƏQDİMATI OLUB




Sentyabrın 24-ü Tbilisidə Heydər Əliyev adına parkda yeni nəşr edilmiş "Şəfəqlərin işıqlandırdığı yol" adlı çağdaş Gürcü-Azərbaycan poeziya antalogiyası kitabının təqdimatı keçirilib. Tədbirdə kitabda şeirləri yer alan müəlliflər, Gürcüstanın Mədəniyyət Nazirliyinin nümayəndələri, poeziya sevərlər iştirak ediblər. Kitabın təqdimatı ilə yanaşı açıq səma altında Azər Musaoğlu və İvane Kezuanın rəsm əsərləri də sərgilənib.

Gürcüstan Yazıçılar Birliyinin bu birliyin Azərbaycan bölməsi ilə birgə hazırladığı kitab Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin xətti ilə "Merani" nəşriyyatında işıq üzü görüb.

Kitabdakı şeirlər gürcü və Azərbaycan dillərindədir. Antalogiyada yer alan 21 şairin arasında Lətif Mustafaoğlu, Allahverdi Təkləli, İmir Məmmədli, Nurafiz, Tapdıq Yolçu, Xəqani Qayıblı, Dəyanət Osmanlı, Rafiq Hümmət, Etimad Başkeçid, Azər Musaoğlu və Coşqun Cəfər də var.

Gürcü və azərbaycanlı şairlərin şeirlərinin bu formatda antalogiyasının nəşri ədəbiyyat tariximizdə həm də bir ilkdir.

Qeyd edək ki, Gürcüstan Yazıçılar Birliyinin sədri Bağater Arabuli, həmin birliyin Azərbaycan bölməsinin rəhbəri isə Allahverdi Təkləlidir.

*"Yeni Yol"*

## LİTVA VƏ LATVİYAYA GEDƏN GÜRCÜSTAN VƏTƏNDAŞLARI KARANTİNƏ ALINACAQLAR

Litva və Latviyaya səfər edən Gürcüstan vətəndaşları məcburi qaydada karantinə alınacaqlar. Yeni qaydalar sentyabrın 21-dən qüvvəyə minib.

Litvada karantin müddəti 14, Latviyada isə 10 günlük olacaq. Litvaya yollanacaq Gürcüstan vətəndaşları həmçinin səfərdən 72 saat öncə verdiyi koronavirus testinin nəticəsini də təqdim etməli olacaqlar.

Qeyd edək ki, bu vaxta qədər Litva və Latviya Gürcüstan vətəndaşlarına ölkə ərazisinə sərbəst giriş hüququ vermişdi. Qərarın dəyişdirilməsinə səbəb Gürcüstanda son günlər koronavirusa yoluxma hallarının artmasıdır.

## BU İL GÜRCÜSTANDA İQTİSADİ AZALMA OLUB



Milli Statistika Xidmətinin hesabatına əsasən, bu ilin yanvar-avqust aylarında Gürcüstanda istehsal olunmuş ümumi daxili məhsulun (ÜDM) ümumi dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 5,6% az olub.

Təkcə avqust ayında isə Gürcüstanda iqtisadi azalma illik müqayisədə 5,3% az olub.

Ötən ay ölkədə mədən və karxanalar istisna olmaqla bütün iqtisadi fəaliyyət sahələrində geriləmə qeydə alınıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.